# İsmayıllı və İsrailin Kiriat Bialik şəhərləri arasında əməkdaşlıq haqqında saziş imzalanıb

Yaponiya, Fransa, Belarus və Latviyadan sonra daha bir ölkə - İsrail dövləti ilə İsmayıllının qardaşlıq və dostluq əlaqələri yaranıb. İsrailin Kiriat Bialik şəhərinin meri Eli Dukorskinin rəhbərlik etdiyi nümayəndə heyətinin İsmayıllıya səfərinin əsas məqsədi şəhər və rayonla, milli-mənəvi dəyərlərlə, tarixi yerlərlə, yəhudilərin yaşadığı Mücühəftaran kəndi ilə tanışlıq, sonra isə qardaşlaşmış şəhərlərin əməkdaşlığı haqqında saziş imzalamaq olub.

Nümayəndə heyəti Lahıc qəsəbəsi, İvanovka və Mücühəftaran kəndləri ilə tanış olmuş, şəhərdəki tarix diyarşünaslıq muzeyinə, Yapon bağına, özəl xalça emalatxanasına, Velosiped istehsalı zavoduna baş çəkmişlər. "Od çərşənbəsi" bayramında iştirak etmişlər.

Martın 7-də qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, Heydər Əliyev Mərkəzi ilə tanış olmuşlar.



Sonra rayon icra hakimiyyətində qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanmışdır. Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov rayonun tarixi, milli tərkibi və qazanılan uğurlarından danışıb.

İsrail dövlətinin Azərbaycan Respublikasındakı səfiri Dan Stiv səmimi qarşılandıqlarına görə təşəkkürünü bildirib, əməkdaşlığın əhəmiyyətli olacağını qeyd edib. Kiriat Bialik şəhərinin meri Eli Dukorski də onlara göstərilən qonaqpərvərliyə, səmimi münasibətlərə görə təşəkkürünü bildirərək qeyd edib ki, şəhərlər arasında əməkdaşlıq haqqında sazişin imzalanması hər iki şəhərin sakinlərinin xeyrinə olacaq.

Əməkdaşlıq haqqında sazişi RİH-in başçısı Mirdaməd Sadıqov və mer Eli Dukorski imzalayıblar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-8 mart.- S.5.